# Çağdaş Azərbaycan poeziyasında Rəsul Rza fenomeni

**Pərvin Nurəliyeva**
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan.
E-mail: nuraliyevaparvin@gmail.com

**Annotasiya.** Məqalədə çağdaş Azərbaycan poeziyasının yaradıcısı Rəsul Rza fenomeni öyrənilir. Rəsul Rza müasir Azərbaycan ədəbi-bədii, fəlsəfi-estetik fikrində böyük xidmətləri olan şairdir. XX yüzilin ortalarından başlayaraq Azərbaycan şeirini dəbdəbədən, şüarçılıqdan, pafosdan, təsvir və tərənnümün kütləviliyindən uzaqlaşdırmağa nail olmuş Rəsul Rza həm də bu fəaliyyətləri ilə poeziyamıza yeni nəfəs gətirmişdir. Bu məqalədə həmçinin şairin müasiri olan, onunla eyni dövrdə yaşayan ədəbi şəxsiyyətlərin Rəsul Rzaya həsr etdiyi şeirlər və onların yazılma tarixçəsindən də bəhs olunmuşdur.
**Açar sözlər:** ədəbi şəxsiyyət, fenomen, ədəbi əlaqə, bədii yaddaş, klassik şeir, çağdaş poeziya

**Məqalə tarixçəsi:** göndərilib – 11.02.2022; qəbul edilib – 22.02.2022

# Phenomenon of Rasul Rza in the contemporary Azerbaijan poetry

**Parvin Nuraliyeva**
Doctor of Philosophy in Philology
Azerbaijan State Pedagogical University. Azerbaijan.
E-mail: nuraliyevaparvin@gmail.com

**Abstract.** The article studies the phenomenon of Rasul Rza, the creator of modern Azerbaijani poetry. Rasul Rza is a poet with great merits in the literary-artistic, philosophical-aesthetic thought of modern Azerbaijan. Since the middle of the 20th century, Rasul Rza, who managed to distance Azerbaijani poetry from luxury, slogans, pathos, and the popularity of description and singing, has also brought a new breath to our poetry with these activities. This article also discusses the poems dedicated to Rasul Rza by contemporary literary figures living at the same time as the poet.
**Keywords:** literary personality, phenomenon, literary connection, artistic memory, classical poetry, contemporary poetry

**Article history:** received – 11.02.2022; accepted − 22.02.2022

## Giriş / *Introduction*

Rəsul Rza poeziyası çağdaş türk şeirinin ən böyük ədəbi hadisələrindən biridir. XX yüzilin ortalarından başlayaraq Azərbaycan şeirini dəbdəbədən, şüarçılıqdan, pafosdan, təsvir və tərənnümün kütləviliyindən uzaqlaşdırmağa nail olmuş Rəsul Rza həm də bu fəaliyyətləri ilə poeziyamıza yeni nəfəs gətirmişdir. Şairin poetik dünyası bütövlükdə zəngin mənəviyyat hadisəsi, mükəmməl obrazlı dünyagörüşün güzgüsüdür və Azərbaycan poeziyasında ayrıca bir mərhələ kimi qiymətləndirilməlidir. Çünki Rəsul Rza yaradıcılığı klassik şeirlə çağdaş poeziya arasında etibarlı körpü rolunu oynayır.

Hegel deyirdi ki, dünyanı dərk etməyin üç yolu var: dini, fəlsəfi və poetik. Bu iki dərketmə yolu özünün ən yüksək nöqtəsində poetik həddə çatır. Fəlsəfə poeziyadan aşağıdır, o mənada ki, fəlsəfə dediyi şeyi əsaslandırmalıdır. Poetik sözü əsaslandırmaq çox çətindir. Poeziya sözün ən ələ gəlməyən formasıdır, hər şeyin fövqündədir. Belə bir deyim var: Poeziya tarixdən daha tarixi, fəl-

səfədən daha fəlsəfidir. Şərq ədəbiyyatında bir ənənə var ki, nəinki fəlsəfi, hətta iqtisadi problemlər belə öz əksini poeziyada tapır. Rəsul Rza XX əsr Azərbaycan fəlsəfi-intellektual poeziya təmayülünün ən mükəmməl nümayəndəsidir. Onun poeziyasının fəlsəfəsi və fəlsəfi poeziyasının özəyi İnsandır. Rəsul Rza şeirlərinin fəlsəfi-estetik istiqaməti insanın dərkinə doğrudur.

## Əsas hissə / *Main Part*

"Azərbaycan ədəbiyyatı və mənəviyyatı tarixində Rəsul Rza fenomeninin mövcudluğu mütləq həqiqətdir və bu həqiqəti qəbul etməyənlər, Əli Kərim demişkən, günün qızıl gözlərinin içinə düz baxa bilməyənlərdir" [5, s.13].

Rəsul Rza, sözün həqiqi mənasında, XX yüzil Azərbaycan ədəbiyyatında məktəb yaratdı və ədibin qələmindən çıxan bənzərsiz ədəbi nümunələr təkcə dəyərli poetik örnəklər olmaqla kifayətlənmədi, bütöv bir küll halında ədəbi mərhələ yarada bildi.

Vaxtilə "Sovet ədəbiyyatı" dərgisinin ingiliscə yayımlanan nəşriyyatının məsul redaktoru öz məktubunda yazırdı ki: "Kanadada poeziya ilə az maraqlanırlar və şeir kitabları çox nadir hallarda təkrar nəşr olunur. Lakin Rəsul Rzanın şeirlərində o qədər yüksək humanizm var ki, Kanada və Amerikada da onları minlərlə oxucu alıb oxuyur və aydan-aya oxucuların sayı artır" ("Sovetskaya literatura" jurnalının ingilis dilində nəşriyyatının məsul redaktorunun məktubu. Moskva, 21. Vl. 1965. Qreyvernkers Ontario, Kanada).

Bütün bu məqamlar Rəsul Rza şəxsiyyətini dərk və təhlil etmək üçün kifayət qədər material verir. Bunu xüsusilə qeyd etmək lazımdır ki, o zamankı ədəbi mühit, müasiri olduğu gənclik, çağdaşları ən nümunəvi yaradıcılıq və mübarizə yolunun Rəsul Rza yolu olduğunu deyirdilər. Buna o dövrə aid bir çox ədəbi nümunələrdə - xatirə və şeirlərdə çox tez-tez rast gəlmək olur. Rəsul Rzanın ədəbi şəxsiyyəti kimi, sırf bədii kəşfləri və estetik yenilikləri xüsusi dəyərləndirilirdi.

*Şair var ki, zamanın doğma oğlu...*
*İdrakın zirvəsindən, hissin yanğınlarından*
*Keçir şeirinin yolu... Əsrin ahəngi-vəzni...*
*Müqəddəs qafiyəsi...*
*Şair var ki... Ömrünün yolu*
*Əbədi bir yazadır,*
*O sözlər sərkərdəsi...*
*Şair Rəsul Rzadır! – deyirdi Əli Kərim.*

Ədəbiyyatşünas Cavanşir Yusifli yazır ki, Əli Kərim yaradıcılığında müşahidə etdiyimiz dünyaduyum məhz Rəsul Rza poeziyasından qaynaqlanırdı...

Xalq şairi Bəxtiyar Vahabzadə "Ey şair, sən haqlısan!" (1960) şeirində Rəsul Rzanın bədii düşüncələrini o dövrkü poetik epoxanın estetik maraqları nöqteyi-nəzərindən xüsusi dəyərləndirirdi:

*Ey Rəsul, sən haqlısan,*
*Çünki sən... öz əsrinə daha artıq bağlısan.*
*Sənət gülüstanına*
*Qədəm basandan bəri*
*O köhnə ölçüləri*
*Cəsarətlə sən atdın*
*"Məna", "məna" demədin*
*Sən mənalar yaratdın!*

Bu misraları oxuduqca bir daha müəyyənləşdirmiş oluruq ki, bəli, XX yüzillik bədii novatorluğunun, estetik yeniliklərinin, poetik inikas şəkillərinin zənginləşməsində Rəsul Rzanın xidmətləri əvəzsizdir. Ədəbiyyat dünyasına yeni qədəm qoyanlar yaradıcılıqda novatorluq sərgiləyən orijinal ədəbi ünvanlara yönəlir və meyillənirdilər. Bu mənada, Əli Kərimin "əsrin ahəngi, vəzni"

deyə səciyyələndirməsi, Bəxtiyar Vahabzadənin "O köhnə ölçüləri cəsarətlə sən atdın" deməsi ustadı Rəsul Rzanın islahatçı sənətkar olmasına işarədir. Elə bu səbəbdən altmışıncılar Rəsul Rzanı çox sevir, onu özlərinin ədəbi kumiri hesab edirdilər. Yetmişincilər isə daha başqa saygı və sevgiylə yanaşır, Rəsul Rza irsini mənəvi mənbə kimi əxz edirdilər. Fikirlərimizi əsaslandırmaq üçün ədəbiyyatşünas alim Vaqif Yusiflinin müqayisələri xeyli diqqət çəkir: "Təbii ki, Rəsul Rzanın şeirə gətirdiyi bu sərbəst düşüncə tərzi 60-cı illərin cavan şairləri üçün örnək oldu. Lakin Rəsul Rzadan öyrənmək heç də təqlidə çevrilmədi. Əli Kərim, Fikrət Qoca, Fikrət Sadıq, İsa İsmayılzadə, Ələkbər Salahzadə, Vaqif Cəbrayılzadə, Camal Yusifzadə, Tofiq Abdin, Azər Abdulla poeziyada öz yollarını çox tez bir zamanda bəlirləyə bildilər. Onlar Rəsul Rza tərəfindən təməl daşları qoyulan, ancaq hələ tam hazır olmayan sərbəst şeirin binasını yeni naxışlarla, hörgülərlə bəzədilər, bu binanı həm milli, həm də Avropa qaydası ilə sinxron şəkildə Azərbaycan poeziya ərazisində ucalda bildilər" [4, s.52-53].

Məmməd Arazın "Gəlmədi Rəsul" (1981) şeirində isə böyük insanın ölümü ədəbiyyatımızın ölçüyə gəlməz itkisi kimi dəyərləndirilir. Azərbaycan poeziyasının yüksəlişində əvəzsiz yeri və rolu olan Rəsul Rza ədəbi şəxsiyyətinin yoxluğu və yerində yaranan nəhəng boşluq sözlə təsvir olunur:

*Bu il "Sabir günləri"nə gəlmədi Rəsul*
*Hər ocağa bu xəbərin ayazı yetdi.*
*Avazıdı qara torpaq, qaraldı ağ su*
*Zaman bir də çətin doğa o planeti... [1, s.89]*

Bəli, Məmməd Arazın da vurğuladığı kimi, zaman bir də Rəsuı Rza kimi planet çətin "doğacaq"dı... O, Ədəbiyyat dünyasının  dan Günəşi, şeiriyyətin bahar qoxusu  idi... Bu torpağın üstündə mənəvi olanların əbədilik, ölməzlik, yaşarılıq simgəsi idi... Sözün çərçivələrinə sığmayan, sözünü çərçivəyə salmayanlardan idi...

*Ölçülərə boy verməzdi əyilməzliyi,*
*Boz qranit qayalara duruşu təndi...*
*Göyərtdiyi ölməzliyin, yenilməzliyin*
*Əkinçisi Rəsul idi, barı Vətəndi... [1, s.90]*

Altmışıncılar nəslinin sənət qayəsi və ən yüksək estetik keyfiyyəti öz mənəvi mənbələrinə sədaqəti, sevgi və saygı sərgiləməsi idi. Necə ki, rus ədəbiyyatında Anna Axmatovanı o cür ilahi sevgiylə sevirdilər və ya A.Tvardovskini, özbək ədəbiyyatında Maqsud Şeyxzadəni, Aybək və Mirtemiri sevdikləri kimi, bizim ədəbiyyatımızda da altmışıncıların poetik məbədi, söz qibləgahı Rəsul Rza idi... Məhz bu nöqteyi-nəzərdən Məmməd Arazın onun yoxluğuna son dərəcə emosional duyğular ünvanlaması təbii qarşılanmalıdır. Bu mahiyyət etibarilə cansız görünməkdə olan şeir parçası əksinə hədsiz təbii və həyati duyğularla canlanmaqdadır.

*Avazıdı qara torpaq, qaraldı ağ su*
*Hər ocağa bu xəbərin avazı yetdi.*
*Bu il şeir günlərinə gəlmədi, Rəsul,*
*Zaman bir də çətin doğa o planeti...*

Rəsul Rza ədəbi fenomeni ilə altmışıncılar nəslinin mənəvi əlaqələrindən danışarkən daha çox ustadın poetik texnikasının gənclər üçün maraqlı və bənzərsiz olduğuna xüsusilə diqqət çəkməliyik. Təkcə sərbəst şeirdə yazanlar yox, eyni zamanda heca vəznində yazanlar, hətta əruzda klassikaya müraciət edənlər belə Rəsul Rzanın şeir mətbəxindən mütləq nələrsə əxz etmişdilər. Ədib özündən sonrakı gənc nəslə, ədəbi gəncliyə sərbəst şeir təcrübəsi ilə yanaşı, sərbəst düşünmə yetənəyini də ötürürdü. Ümumilikdə, altmışıncılar Rəsul Rza ilə şair obrazını dərk etdilər. Fikrət Qoca, Ələkbər Salahzadə, Vaqif Səmədoğlu, Abbas Abdulla, İsa İsmayılzadə, Çingiz Əlioğlu və başqalarının Rəsul Rzaya həsr etdiyi şeirlərdə biz bu dərin ədəbi bağları görməkdəyik:

*Salam, Rəsul Rza!*
*Yenə də özümlə söhbətim səndən düşdü.*
*Salam, şair!*
*Bilirəm, şair ömrü uzun işdi [2, s.125].*

Fikrət Qocanın bu şeirində isə bir estetik reallıq kimi şairlik işinə olduqca həssaslıqla yanaşılır.

**Nəticə / *Conclusion***

Rəsul Rza əsrlərdən qırıq-qırıq sızıb gələn ənənələri böyük sürətlə inkişaf etdirərək, sərbəst şeiri XX əsr Azərbaycan poeziyasında qanuniləşdirmək missiyasını böyük şərəflə həyata keçirmişdir. Məhz Rəsul Rzanın böyük yaradıcı dühasının simasında sərbəst şeir Azərbaycan ədəbiyyatının həmişəlik ədəbi sərvətinə çevrilmişdir. Xalq şairi Rəsul Rza Azərbaycan sərbəst şeirinin atasıdır. Rəsul Rzanın sərbəst şeirləri Azərbaycan ədəbiyyatına geniş fikir və düşüncə sərbəstliyi gətirmiş, lirikanın poetik formanın bəzi formal tələblərindən xilas olmasına imkan yaratmışdır. Sərbəst adlanmasına baxmayaraq, Rəsul Rzanın poeziyasında şeir texnologiyası üçün zəruri olan şərtlərə yaradıcı şəkildə əməl olunmuşdur.

Bu mənada Rəsul Rzanın sərbəst şeirləri özünəməxsus yüksək sənətkarlıq xüsusiyyətlərinə malik olan qiymətli poetik nümunələrdir. Rəsul Rzanın sərbəst şeirləri ilə Azərbaycan sərbəst şeiri özünün inkişafının ən yüksək səviyyəsinə çatmışdır. Azərbaycan xalqının tarixi taleyi və XX əsr boyu çətin həyatın real fəlsəfəsi Rəsul Rzanın poeziyasının nəbzində döyünür [3, s.18].

**Ədəbiyyat / *References***

1. Araz Məmməd. Seçilmiş əsərləri. Dörd cilddə, III cild.
2. Qoca Fikrət. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004.
3. Rza Rəsul. Seçilmiş əsərlərləri, 3 cilddə. Bakı: Letterpress, 2010.
4. Yusifli Vaqif. Rəsul Rza və müasir Azərbaycan poeziyası. Bakı: Letterpress, 2010.
5. Yusifli Vaqif. Rəsul Rza: dünənin, bu günün və gələcəyin şairi. “Mədəniyyət” qəzeti, 12 may 2010.

## Феномен Расула Рзы в современной азербайджанской поэзии

**Парвин Нуралиева**
Доктор философии по филологии
Азербайджанский Государственный Педогогический Университет. Азербайджан.
E-mail: nuraliyevaparvin@gmail.com

**Резюме.** В статье рассмотрен феномен Расула Рзы как основоположника современной азербайджанской поэзии. Поэт Расул Рза имеет большие заслуги в современной азербайджанской литературно-художественной и философско-эстетической мысли. Начиная с середины ХХ столетия Расул Рза добивался избавления азербайджанского стиха от торжествующего пафоса модных лозунгов, всеобщего изображения повсеместного прославления, и в результате этой деятельности принёс в нашу поэзию новое дыхание.
В статье также приводятся посвящённые ему стихи современников Расула Рзы и краткие истории их написания.
**Ключевые слова:** литературная личность, феномен, литературная связь, художественная память, классический стих, современная поэзия